# Sülhməramlıların əsas vəzifəsi təhlükəsizliyi təmin etməkdir



***İşğalçı Ermənistan sentyabrın 27-də başladığı müharibəyə 44 gün davam gətirə bildi. Bu müharibə Azərbaycanın tam qələbəsi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Bu dövr ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəklik azad olundu. Azərbaycan Ordusu bir daha dünyanın ən güclülərindən biri olduğunu təsdiqlədi. Xarici havadarlarına güvənən düşmənin texnikası tam məhv edildi, canlı qüvvəsinə ciddi zərbə vuruldu. Özlərini güclü, qüvvətli sanan Ermənistan ordusu darmadağın edildi, atəşkəs ərəfəsində artıq vahid komandanlığı olmayan, müqavimət qabiliyyətini itirmiş, başıpozuq dəstələri xatırlatdı. Və nəhayət, diz çökdü.***




Buna qədər də Ermənistan rəhbərliyi 3 dəfə ağ bayraq qaldırmışdı. Əgər Paşinyan əvvəllər Azərbaycana heç bir güzəştin olmayacağını bəyan edirdisə, bu dəfə rəsmən təslim oldu. Düşünülmüş hərbi əməliyyatlar, ordumuzun peşəkarlığı, müzəffər Ali Baş Komandan , Prezident İlham Əliyevin qətiyyətli siyasətçi və dövlət başçısı olması bir daha özünü büruzə verdi. Ermənistanın havadarları olan dövlətlər və böyük güclər tərəfindən təzyiqlərə baxmayaraq, dövlətimizin başçısı öz prinsipiallığını və qəti əzmini bir daha nümayiş etdirdi. Möhtərəm Prezidentimiz bir daha sübut etdi ki, Azərbaycanın milli maraqları onun üçün ən ali dəyərdir.

Azərbaycan Ordusu Dağlıq Qarabağın incisi olan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi azad etməklə bir daha dünyaya sübut etdi ki, bir qarış da olsun torpağımız işğalda qalmayacaq. Noyabrın 10- da Ermənistanın rəsmən təslim olması da bunu təsdiqlədi. 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi.

10 noyabr Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu. Həmin gün Azərbaycanın Ermənistan üzərindəki qələbəsi rəsmən elan olundu. Dövlətimizin başçısı cənab İlham Əliyev həmin gün xalqa müraciətində də bunu xüsusi vurğuladı: "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır. Bu bəyanatı Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri imzalamışlar".

Artıq işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, özlərinə yeni ev-eşik quracaq və doğma ata- baba yurdlarında təhlükəsiz yaşayacaqlar. Müzəffər Ali Baş Komandanımız yenilməz ordumuzun gücü ilə 30 illik yurd həsrətinə son qoydu.

Dövlətimizin başçısı bir daha bəyan etdi ki, məcburi köçkünlərin öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq. Dünya birliyi mənfur düşmənimizin bu torpaqları hansı vəziyyətə saldığının şahiddir. Vəhşiləşmiş ermənilər bütün binaları dağıdıb, tarixi abidələrimizi, muzeylərimizi talan edib. O cümlədən təbiətimizə böyük ziyan vurulub, məscidlərimiz dağıdılıb, təhqir edilib. Azad edilmiş torpaqlarda yarıdağılmış məscidlərdə vəhşi düşmən bizi təhqir edib, qürurumuza toxunub. Bütün bunların qisasını artıqlaması ilə aldıq.

Artıq düşməndən azad olunmuş ərazilərin qorunmasında sülhməramlı qüvvələr də iştirak edəcək. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin imzaladıqları bəyanatın 5 -ci bəndində də göstərilir: "Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır".

Sülhməramlı vəzifələr nədir? Sülhməramlıların əsas vəzifəsi regionda təhlükəsizliyi təmi etməkduir. Bu məqsədlə:

**- münaqişə tərəflərinin sazişə riayət etməsini izləmək;**

**- silahlı toqquşmaların qarşısını almaq;**

**- xarici qüvvələr tərəfindən münaqişə iştirakçılarına silah verilməsinin qarşısını almaq;**

**- mübahisələri tənzimləmək və təxribatların qarşısnı almaq;**

**- nümayəndə heyətlərinin qorunmasını təmin etmək ;**

**- mülki əhaliyə kömək etmək.**

Bəziləri məqsədli şəkildə, ara qarışdırmaq, müəyyən şübhələr yaratmaq üçün soruşur: Niyə tək Rusiya? Bu suala cavabım konkretdi: 44 günlük müharibə zamanı Rusiyanın bu məsələdə tutduğu ədalətli mövqe. Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bu ölkənin Prezidenti Vladimir Putinin müharibə gedən dövrdə "işğal (erməni işğalı) sonsuzluğa qədər davam edə bilməz", "münaqişə Azərbaycanın suveren ərazisində gedir və biz buna müdaxilə edə bilmərik" kimi açıqlamaları qüdrətli və güclü bir qonşumuzun bütün təkliflərinə "yox!" demək üçün bizdə hər hansı şübhə yeri qoymadı. Rusiya faktoru bütün hallarda nəzərə alınmalı idi.

Rusiya və Azərbaycan dostluq münasibətləri, Ermənistan və Rusiya əlaqələrindən daha möhkəm və etibarlıdır. Bu da hazırkı mərhələdə Azərbaycan ilə Rusiya arasında etibarlılıq prinsiplərinə inamı artıran faktor kimi qəbul edilməlidir.

Artıq Rusiya ilə Türkiyə arasında Qarabağda atəşkəsə nəzarətə dair müqavilə imzalanıb. Qardaş Türkiyə Prezidentinin "Qarabağ azərbaycanlı qardaşlarımızın yenidən döndüyü torpaqlar olacaq" deməsi "Bir millət, iki dövlət" anlayışı içərisində bütün səylərimizin ortaya qoyulmasının təsdiqidir. Hər iki ölkənin vətəndaşları da tam əmindirlər ki, bundan sonra da "bir millət, iki dövlət" olaraq bu yolla irəliləyəcəyik.


***Çingiz QƏNİZADƏ,***
***Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru***



Xalq qəzeti 2020.- 20 noyabr.- S.7.